Ayna.Az

10.12.2011

# "İctimai səhiyyə sistemi həyatımızın bütün sahələrini əhatə edir"

***Ceyhun Məmmədov: "Bu sahənin inkişafı Azərbaycan üçün çox aktualdır"***

Xəstəlikləri önləmək və risk faktorlarını aradan qaldırmaq istənilən dövlət üçün sosial-iqtisadi və tibbi baxımdan vacibdir. Bu mənada ictimai səhiyyə sisteminin inkişafı Azərbaycan üçün çox aktualdır. İctimai səhiyyənin inkişaf etmiş bloku əksər Avropa ölkələrinin səhiyyə sisteminin ayrılmaz hissəsidir. Bu sistem əhalinin səhhətini öyrənir, monitorinq edir, sağlamlıq üçün risk amillərini aşkarlayan və qiymətləndirən tədqiqatlar aparır. Bu riskləri azaltmaq məqsədilə modellər, texnologiyalar, strategiyalar, vasitələr, metod və proqramlar hazırlanır, bu məqsədlə görülən tədbirlərin effekti müşahidə edilir. Başqa sözlə, ictimai səhiyyə müxtəlif sahələrdə çalışan mütəxəssislərin güclərini əhalinin sağlamlığının möhkəmləndirilməsi naminə birləşdirir.

SN İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Ceyhun Məmmədovun sözlərinə görə, sözügedən mərkəzin yaradılması Azərbaycanda səhiyyənin inkişafı və ölkədə ictimai səhiyyənin tanınmasında bir dönüş oldu. İctimai səhiyyə isə ilk növbədə əhalinin sağlamlığını təmin etmək üçün bütün əlçatan resursların koordinasiyası və səfərbər olunmasıdır:

"Söhbət cəmiyyətin əksər strukturlarının qarşılıqlı əlaqəsindən gedir. Axı əhalinin sağlamlığı təkcə tibb işçilərinin səylərindən asılı deyil, digər qurumların səylərinə də bağlıdır. Əhalinin təhsil səviyyəsi, ölkənin iqtisadi inkişafı, ətraf mühitin təmizliyi və digər faktorlar da əhəmiyyət kəsb edir".

Onu da qeyd edim ki, İctimai Səhiyyə və İslahatlar Mərkəzi səhiyyə sistemində islahatların aparılması və ictimai səhiyyə xidmətinin gücləndirilməsi üçün metodoloji baza rolunu oynayır. Mərkəzin vəzifələri sırasına əhalinin sağlamlığı ilə bağlı tədqiqatların aparılması, əldə edilən nəticələrin analizi, proqnozların tərtibatı, konseptual sənədlərin, proqramların hazırlanması, həmçinin səhiyyə sistemində islahatlar xəttinin inkişafı daxildir. Məhz burada Azərbaycan üçün aktuallıq kəsb edən vərəmlə mübarizə, perinatal yardımın regionlaşdırılması, psixi sağlamlıq kimi strategiyalar hazırlanıb.

**- Bəlli olduğu kimi, ictimai səhiyyənin məqsədi əhalinin sağlamlığının mühafizəsi və gücləndirilməsidir. Sizin mərkəz bu işdə hansı strukturlarla əməkdaşlıq edir?**

- Effektli ictimai səhiyyənin əsasında dövlət və qeyri-dövlət sektorlarının, müxtəlif qurumların fəal, qarşılıqlı əməkdaşlığı dayanır. Məsələ ondadır ki, ictimai səhiyyənin əksər proqramları Səhiyyə Nazirliyinin fəaliyyət çərçivəsindən çıxır. Konkret misal çəkirəm. 2005-ci ildə Azərbaycan ÜST-ün tütünlə mübarizə çərçivə konvensiyasını ratifikasiya edib.

Bu qanunun qəbulu ölkənin üzərinə konkret öhdəçilik qoyur. Bu öhdəliklərin, sənəddəki bütün bəndlərin icrası üçün əksər nazirliklərin - səhiyyə, ədliyyə, vergi, təhsil, iqtisadi inkişaf və s. qurumların qüvvələrinin birləşdirilməsi vacibdir. Niyə? Çünki tütünlə mübarizə sanitar maarifləndirmə ilə yanaşı, həmçinin hüquqi-normativ aktların qəbulunu, aksiz vergilərin yüksəldilməsini, məktəb proqramlarına xüsusi proqramların daxil edilməsini tələb edir. Bu mübarizəyə mütləq şəkildə qeyri-hökumət təşkilatları, ictimaiyyət cəlb olunmalıdır, bunsuz uğur qazanmaq mümkünsüzdür. Gördüyünüz kimi, bir idarə və ya müəssisənin səyi ilə bu problemi həll etmək olmaz. Və yaxud başqa misal çəkim. Yollarda təhlükəsizlik. Bir tərəfdən, sual vermək olar ki, burada tibb işçilərinin rolu nədir ki? Bu məsələ ilə yol polisi məşğul olmalıdır. Lakin cavab aydındır. Bu gün travmatizm, əlillik və yol qəzaları nəticəsində baş verən ölüm halları xəstəliklərin siyahısında əhəmiyyətli yer tutur. Əhali arasında onkoloji xəstəliklərdən ölüm halları, ürək-damar, diabet xəstəlikləri yüksək faizə malikdir. İnsanların iztirabı da səhiyyə sistemi üçün ağır

yükdür, çünki təcili yardımın göstərilməsi və müalicə (bir qayda olaraq uzun müddətli), və reabilitasiya (bəzən ömürlük) dövlət üçün az pul deyil.Əlb əttə, biz ictimai səhiyyə üzrə mütəxəssislər dövlət yol polisinin ixtisarında maraqlıyıq. Və bu işdə biz Nəqliyyat Nazirliyi, Dövlət Yol Polisi, digər dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıqda uğur qazana bilərik.

**- QHT-lər ictimai səhiyyənin inkişafında fəal iştirak edirlərmi?**

- Son dörd il ərzində biz hər ay ÜST, UNICEF, USAID, Qlobal Fondun əməkdaşlarının iştirak etdiyi görüşlər təşkil edirik. Layihələr haqqında informasiya mübadiləsi edir, səhiyyə sferasındakı islahatların dinamikası müzakirə mövzusu olur. Yerli QHT-lər bu görüşlərdə özləri, layihələri barədə məlumat verə, beynəlxalq təşkilatlarla partnyor münasibətləri qura bilərlər. Bu daimi görüşlər beynəlxalq agentliklərin və yerli QHT-lərin layihələrini yaxşı koordinasiya etməyə, onların addımlarını Səhiyyə Nazirliyinin işi ilə sinxronlaşdırmağa imkan verir.

Bunun parlaq nümunəsi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Azərbaycan Diabet Cəmiyyəti ilə birgə layihəsidir. Layihə çərçivəsində paytaxtda və bölgələrdə yeni diabet məktəbləri açılır.

İctimai səhiyyə bizim həyatımızın bütün sferaları ilə əlaqəlidir. Bu, "göydələn"lərin inşası ilə də bağlı məsələ ola bilər. Tutalım, bu binalarda ekoloji təmiz materiallardan istifadə edilirmi? İşçilər texniki təhlükəsizlik qaydalarına riayət edirlərmi? Ətraf mühitin təmizliyi - tütün tüstüsüz ictimai yerlərin genişləndirilməsi, uşaqların sağlam həyat tərzinə bağlı tərbiyəsi, içməli suyun və istifadə edilən məhsulların keyfiyyəti və s. Axı bizi əhatə edən hər şey sağlamlığımıza təsir edir. Deməli, ictimai səhiyyə üçün öyrənmək və təsir etmək bir vasitədir.

**Liya Aynurə**